AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

*Əlyazması hüququnda*

**MƏHƏMMƏDRZA ZAKİR ABBASƏLİ SƏMƏD OĞLU**

# İSLAMDA, XRİSTİANLIQDA VƏ YƏHUDİLİKDƏ CƏZA QANUNLARININ MÜQAYİSƏLİ TƏHLİLİ

**7213.01 – Dinşünaslıq**

**Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyasının**

**A V T O R E F E R A T I**

**BAKI – 2014**

**Dissertasiya AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Ərəbdilli əlyazmaların tədqiqi" şöbəsində yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** **Vasim Məmmədəli oğlu Məmmədəliyev**
**Akademik**

**Rəsmi opponentlər:** **Əsədulla Cüci oğlu Qurbanov**
**Fəlsəfə üzrə elmlər doktoru, professor**

**Ceyhun Valeh oğlu Məmmədov**
**İlahiyyat üzrə fəlsəfə doktoru**

**Aparıcı müəssisə:** **AMEA Fəlsəfə və hüquq İnstitutunun Dinşünaslıq və mədəniyyətin fəlsəfi problemləri şöbəsi**

Müdafiə " 23 "__01___ 2015-ci il, saat AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun nəzdində yaradılmış birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Bakı, Az1001, İstiqlaliyyət küçəsi, 26.

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat:________________2014-cü ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi
Ilahiyyat üzrə fəlsəfə doktoru Z.A.Əbilova

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** İstər dindarlar və istərsə də dinsizlər üçün dinlərin və onlarla bağlı mövzuların, xüsusən də cəza məsələsinin öyrənilməsi və araşdırılması hər zaman aktual olmuş və xüsusi əhəmiyyət daşımışdır. İnsanın öz düşüncəsində, gündəlik yaşayışında və inancında hər zaman daxili bir əminliyə ehtiyac duyduğu üçün o, həmişə İlahi bir qüvvə axtarışında və ehtiyacında olmuşdur.[1] Bu baxımdan mövzunun aktuallığı onunla izah olunur ki, burada İbrahimi dinlərdə (yəhudilik, xristianlıq və islamda) ən aparıcı məsələlərdən biri olan cəza məsələsi təhlil edilir və araşdırılır. Gəlinən nəticə ondan ibarətdir ki, səmavi dinlərdə bu məsələ fərqli ölçülərdə ələ alınsa da, onların hamısında bu sahədə mövcud olan qanunlar bir-birinə çox yaxındır. İslam dini yəhudiliyin ilkin formasını təsdiq etsə də, onun müqəddəs kitabının və hökmlərinin heç də hamısını bu günkü vəziyyətdə müdafiə etmir. Buna baxmayaraq, bu iki din bir cəhətə görə bir-birinə bənzəyirlər. Bu cəhət hər iki dində şəriətə – yəni dini qanunlara dəyər verilməsi ilə bağlıdır. Dünyanın mövcud fəal dinlərindən heç birində şəriətə islamda və yəhudilikdə verildiyi qədər əhəmiyyət və önəm verilməmişdir. Bu iki dindəki şəriət hökmlərinin çox oxşar olması onların qarşılıqlı əməli araşdırılması üçün münasib bir şərait yaradır. Təbii ki, bu prosesdə lazımi elmi tədqiqatların aparılması və onların nəticələrindən əməli faydalanma da böyük önəm daşıyır.

Mövzunun əhəmiyyətli olması bir də onunla bağlıdır ki, müsəlmanların müqəddəs kitabı "Quran"da Bəni-İsrailin

---

[1] عمارة تجيب. الانسان فى ظل الاديان. القاهرة، ١٩٧٦، ص. ٥٠.

tarixi, təlimləri, şəriəti, şəxsiyyətləri, eləcə də dini ilə əlaqədar çoxlu ayələr mövcuddur.

İslam dini ilə yəhudi dini arasında hüquqi baxımdan da bir çox oxşarlıqlar vardır. Müqəddəs mətnlərin (Əhdi-ətiq) qanunlar külliyyatı olması, hökmlərin oradan götürülməsi qaydası, onların şərhi və izahı, ədalət, günahlandırma və cəza –bütün bunların hamısı çox əhəmiyyətli hüquqi mövzulardır və hər iki dində onların bir çox oxşarlıqları diqqəti cəlb edir[2]. İslam kəlamlarında ardıcıl olaraq səmavi adət-ənənələrin davamlı olması düşüncəsi yer almışdır. Müsəlman mütəfəkkirləri səmavi dinlərin vəhdətdə olduğunu düşünürlər. Təkallahlı (İbrahimi) dinlərin yaranmasının kökü birdir. Quranın "Şura" surəsinin 13-cü ayəsində də bu məsələyə təkid edilir: "(Ya Peyğəmbər!) Allah: "Dini doğru-dürüst tutun (qoruyub saxlayın), onda ayrılığa düşməyin!" – deyə Nuha tövsiyə etdiyini, sənə vəhy buyurduğunu, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyini dində sizin üçün də qanuni etdi)".

Bu ayədən çıxış edərək səmavi dinlərin yaxınlığı ilə bağlı əhəmiyyətli tədqiqatların həyata keçirilməsi zəruridir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti səmavi dinlərdir; cəza məsələsinin onlarda qoyuluşu və həlli yollarıdır. Araşdırmanın predmeti isə "Bibliya"da və "Quran"da ifadə olunmuş cəza məsələlərinin bir-birinə oxşar və bənzər tərəflərini, eləcə də onlar arasındakı fərqləri üzə çıxartmaqdan ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi konkret misallar əsasında səmavi dinlərdə cəza və onu doğuran günahların araşdırılması və onların bir-birinə nə dərəcədə yaxın və oxşar olmasının ortaya çıxarılmasıdır. Xristianlıqda proseslər elə inkişaf etmişdir ki, nəticədə bu dində şəriət və hüquqi hökmlər sıradan çıxmışdır. Lakin islam və yəhudi din-

---

2 سلیمانی حسین. عدالت کیفری در ایین یهود (مجموعة مقالات). قم، ١٣٨٤هـ، ص. ٢٨.

ləri arasında əlaqələrdə, xüsusən də hüquq məsələlərində diqqətəlayiq bağlılıqlar və oxşarlıqlar mövcuddur. Yəhudi dinində fiqh və hüquqla əlaqəli ehkamlarda cəzaların rolu çox əhəmiyyətlidir. Tövratda və Talmudda müxtəlif günahlara dair hökmlər, çoxsaylı cəzalar, günahlara baxılması və onların sübuta yetirilməsi üçün ədalətli məhkəmələr, eləcə də bu məsələlər ilə bağlı ətraflı izah və şərhlər vardır. Tövratın bir çox yerlərində yəhudilər günah işlətməməyə və günahdan çəkinməyə çağırılır. Əks təqdirdə hər cür qanun pozuntularının, yəni günahkarların necə lazımsa cəzalandırılacağı bildirilir. Məsələn, Tövratda cəzası edam olan bir çox günahlar göstərilmişdir. Yəhudi hüquqşünasları bu məsələdə heç nədən çəkinməmişlər. İslamda da cəza hökmlərinə xüsusi diqqət ayrılmışdır. Belə məlum olur ki, bu iki din arasında cəza hökmləri ilə bağlı müəyyən fərqlər olsa da, onlar arasındakı oxşarlıqlar da kifayət qədərdir. Bu dissertasiyada məqsəd və niyyət cəza məsələsinin islam və yəhudi dinində tutduğu yer və onlar arasındakı oxşarlıq və yaxınlıqları, eləcə də fərqləri əməli olaraq araşdırmaqdır. Bunun üçün müqayisələrin aparılması və nəticələrin çıxarılması zəruridir. Tədqiqatın bu yöndə aparılması üçün Quran, hədis, icma və ağıl, eləcə də Bibliya və Talmuddan istifadə olunmuşdur. Çünki tək mənbəyə istinad və digər mənbələrə etinasızlıq bir çox həqiqətlərdən kənarlaşmağa və yanlış nəticələrə gətirib çıxarır.

Tədqiqatın vəzifəsi isə üç səma dinində-yhudilik, xristianlıq və islamda cəza məsələlərini müqayisə edərək və diqqətlə araşdıraraq vahid məqsədlərə və dəyərlərə nail olmaqdır.

**Tədqiqatın elmi yeniliyi.** Dinlərin müqayisəli araşdırılması təqribən bir əsr bundan öncə başlamışdır. Lakin indiyə qədər dinlərdə hüquq mövzusu, xüsusən də cəza məsələsi və onun əməli və müqayisəli araşdırılması bu dissertasiyada olduğu kimi mükəmməl və əhatəli bir şəkildə tədqiq edilməmişdir. Dissertasiyada təkcə cəzaları doğuran günahlar araşdırılmır,

həm də məsələlərə o dövrün şəraiti və düşüncəsi baxımından qiymət verilir. Həmçinin cəzaların növü, kəmiyyət və keyfiyyəti də diqqətə alınır. Bu baxımdan cəzaların mahiyyəti, reallığı, say və tərkib hissələri, eləcə də onların necə icra edilməsi "Quran"a və "Bibliya"ya görə şərh olunur, onlar arasında müqayisə və paralellər aparılır. Əslində bu tədqiqatda təkcə cəzalar və onların verilməsi sadalanmır, həm də onların ayrı-ayrı dinlərdəki izahı və müqayisəsi həyata keçirilir.

Əlbəttə, araşdırmada əsas mənbə olaraq Quran və Bibliyadan istifadə edilmişdir. Bunlarla yanaşı islam hədisləri və Talmud da istinad olunmuş mənbələrdəbdir. Həmçinin tarixi mənbələrə, o cümlədən Con Boyer Nossun "Dini icmaların tarixi", Robert Ernest Hyumun "Dünyanın canlı dinləri", Hüseyn Tofiqinin "Böyük dinlərlə tanışlıq", Elen Entermenin "Yəhudi etiqadları və ayinləri" əsərlərinə müraciət edilmişdir. İstilah və terminlərin düzgün verilməsi üçün bir çox terminoloji ədəbiyyatdan və lüğətlərdən, o cümlədən Əliəkbər Dehxudanın "Lüğətnamə", Raqib İsfəhaninin "Qurana dair proqram", Məhəmməd Ümərənın "Qərb ilə İslam arasında istilah davası" əsərlərindən yararlanmışıq. Eləcə də dini hökmlərin şərhi və təfsiri məsələlərində Abrahamm Kohenin "Talmud xəzinəsi", Adin Eştayn Saltezin "Talmuda baxış", Məhəmməd Səbzevari Nəcəfinin "Talmud qaydaları", Məhəmməd Tusinin "Quranın təfsirinə dair bəyan", Nemətullah bin Mahmud Naxçıvaninin "İlahiyyata giriş və qeyb aləminin açarı", Məhəmməd Sadiqi Tehraninin "Quranın təfsirində bəlağət", Məhəmməd bin İsmayıl əl-Buxarinin "Buxarinin doğrusu" və Müslüm bin əl-Hecac əl-Qüşeyrinin hədis kitablarından və s. istifadə olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Bu gün dünyanın müxtəlif ölkələrində çoxsaylı cəza qanunları vardır. Onlar möhkəm əsaslara və qaydalara söykənirlər. Bu cəza qanunları son əsrlərdə yeni formalaşma prosesi keçsələr də, onların

bir qismində dini qanunların təsiri çox aydın bir şəkildə hiss olunur. Bu baxımdan hazırkı tədqiqatın gəldiyi mühüm nəzəri nəticələrdən biri də budur ki, bu günkü cəza qanunvericiliyinin bir çox üsul və prinsiplərinin, o cümlədən, cəzaların qanuni olması, cəzaların şəxsi olması, günah və cəzanın nisbəti və s. kimi prinsiplərinin kökündə səmavi dinlərin hökmləri dayanır. Bunun ortaya qoyulması ona gətirib çıxarır ki, bəşəriyyət dinin dəyəri və effektivliyini dərindən dərk edir və bu reallıqdan daha çox faydalanmağa çalışır. Bu tədqiqat həm də dinin xurafatdan başqa bir şey olmadığını və dinlərin möhtəviyyatlarının elm və düşüncə ilə uzlaşmadığını iddia edən şəxslərə tutarlı bir cavabdır.

Əslində nəzəri və praktiki baxımdan önəmli rol oynadığına görə bu tədqiqat xüsusi əhəmiyyət daşıyır. Yəni ayrı-ayrı sahələrin tədqiqatçıları, dərslik tərtib edən müəlliflər, müxtəlif peşələr üzrə mütəxəssislər və eləcə də tələbələr bu tədqiqatdan əməli olaraq faydalana bilərlər. Bundan başqa, kütləvi informasiya vasitələri əməkdaşlarının, eləcə də geniş oxucu kütlələrinin bu tədqiqatın nəticələrindən bəhrələnmək imkanları vardır.

**Tədqiqatın metodu.** Araşdırmada səmavi dinlərin müqəddəs kitablarına, ilkin mənbələrinə və bu yöndə aparılmış tədqiqatlara istinadən tarixi-müqayisəli və nəzəri yanaşma metodundan istifadə olunmuşdur.

**Tədqiqatın mənbələri.** Bu tədqiqat şəxsi araşdırmalar, elmi-kütləvi nəşrlər, arxivlər, kitabxanalar, eləcə də, sahə ilə bağlı keçirilən tədbirlər və internet saytlarından əldə olunan materiallar əsasında aparılmışdır. Bu baxımdan Azərbaycanda AMEA Əlyazmalar İnstitunun, BDU-nun ilahiyyat fakültəsinin, İranda isə Şiraz Quran Elmləri İnstitutunun, Qum Din və Məzhəblər Universitetinin, Tehran Universitetinin, eləcə də Amerika Birləşmiş Ştatlarının müvafiq kitabxanalarının mənbə və materiallarından istifadə edilmişdir. Həmçinin yəhudilik və

xristianlığın əsaslı mənbələrini araşdırmaq üçün Livanın Beyrut şəhərində yerləşən Cozef Universitetində tədqiqat işləri aparılmışdır.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda yerinə yetirilmişdir. Dissertasiyanın əsas müddəa və nəticələri müxtəlif elmi-nəzəri konfrans materiallarında, elmi jurnallarda dərc olunmuş məqalə və tezislərdə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, 2 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Birinci fəsildə mövzu ilə bağlı ümumi məlumat verilmiş, Bibliyada və Quranda mövcud olan cəza qanunlarının ümumi prinsiplərindən bəhs edilmiş, ikinci fəsildə isə Bibliya və Qurandakı cəza sistemləri şərh olunmuşdur.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri müəyyən edilir, elmi yeniliklər, nəzəri və təcrübi əhəmiyyəti, dissertasiyanın aprobasiyası və quruluşu müəyyənləşdirilir.

**"Bibliya və Quran cəza hökmlərinin əsas mənbələri kimi"** adlanan birinci fəsil dörd yarımfəsildən ibarətdir. **"Cəza qanunvericiliyinə görə dinlərin müqayisəli öyrənilməsi"** adlanan birinci yarımfəsildə deyilir ki, dinşünaslıq qədim zamanlardan insanların diqqətini cəlb etsə də, dinlərin bir elm sahəsi kimi müqayisəli şəkildə öyrənilməsi nisbətən sonrakı dövrlərə aid olmuş və inkişaf etmişdir.[3] Müqayisəli dinşünaslıq və ya "dinlər elmi" sosial elmlərin bir qoludur.

Dinşünaslar kəlam, fəlsəfə, tarix, ədəbiyyat, mədəniyyət sahəsində diqqətəlayiq işlər görsələr də, şəriətlərin və dini hü-

---

[3] شبلى الدكتور احمد. مقارنة الاديان اليهودية. القاهرة، ١٩٨٨، ص. ٢٤.

ququn, xüsusən də cəza hüququnun müqayisəli araşdırılması məsələsinə az diqqət yetirmişlər. Əslində müxtəlif istiqamətli müqayisəli dinşünaslıq nisbətən yeni bir elmi sahə olduğu üçün onun araşdırmasında hələlik əsaslı nəzəri nəticələr yoxdur. Halbuki belə tədqiqatlar dinlərə münasibətdə əsaslı dəyişikliklər yarada bilər.

Müqayisəli dinşünaslıq dinləri, onların bütün yön və cəhətləri ilə müqayisəli bir şəkildə öyrənən elmi ehtiva edən bir istilahdır.[4] Dinlərin ayrı-ayrı sahələri bir-biri ilə ciddi şəkildə bağlı olsalar da, onların hər birinin özünəməxsus xüsusiyyətləri həm də onları bir-birindən fərqləndirir. Dinşünaslığın vacib sahələrindən olan şəriət (dini hüquq) insanın hüquq və vəzifələri ilə bağlı hökm və göstərişləri əhatə edən mövzuların araşdırılması ilə məşğul olur. Bu baxımdan dinlərdə cəza hüququ müqayisəli dinşüaslıqda maraq doğuran və bir çox suallara cavab verə biləcək bir sahədir. Dinlərin araşdırılması iki tədqiqat üsulu ilə, yəni daxili və xarici araşdırma üsulu aparılır. Daxili üsulda araşdırmaçı daxili bir inancla tədqiqatla məşğul olur, dini müdafiəyə qalxır, dinin əleyhinə yönəlmiş hər cür fikir və düşüncələrə tutarlı cavab verir. Ancaq xarici üsulda birbaşa yalnız elmi tədqiqata əsaslanılır, burada məsələyə kəlam elmi baxımından yanaşılmır, yəni dinə bağlılıq və tərəfkeşlik bu zaman heç bir rol oynamır. Xarici üsulda insan ağlı və təcrübəsi əsas götürülür. Müxtəlif dinlərin müqayisəli öyrənilməsi bitərəf və müstəqil dinşünas tərəfindən həyata keçirilməlidir. Çünki bu zaman araşdırıcı öz dininin əhəmiyyətli özəlliklərini qabartmaqla və digər dinlərin zəif tərəflərini ortaya qoymaqla ədalət prinsipinə riayət etməyə bilər. Əlbəttə, dinlərin elmi araşdırılmasında ehtimal olunan belə tendensiyalardan qaçınılmalıdır. Başqa dinlərin tənqidi dəyərləndirilməsi sonsuz dərəcədə çətin və incə bir məsələdir. Bu iş tədqiqatçı-

[4] فنایی ابو طالب و ابراهیمیان محمد. دین شناسی تطبیقی. تهران، ۱۳۷۸ش.، ص. ۳.

nın şəxsi iradəsi və ləyaqətinə o dərəcədə bağlıdır ki, o, tənqidi fərasətini başqa dinlərə münasibətdə yüksək düşüncə və anlayışdan qaynaqlanan real hisslərlə ifadə etməlidir. Dinlərin müqayisəli öyrənilməsinin məqsədi bu dinlərin zəif və güclü tərəflərinin vurğulanması deyil, onların daşıyıcılarının bir-birilərinə daha çox yaxınlaşdırılması üçün müxtəlif dinlərin qərəzsiz bir şəkildə müqayisəsi və öyrənilməsidir.

**Birinci fəslin ikinci yarımfəsli "Yəhudi, xristian və islam şəriətləri"** adlanır. Hüquq bölməsində şəriət 3 mövzu ətrafında cərəyan edir. Birinci mövzu şəxsiyyətlə, onun evli olması və boşanması, mal sahibi və ya varis olması; ikinci iqtisadi sövdələşmə və özəl müqavilələrdə iştirakı, yəni ticarət və icarə məsələləri; üçüncü isə cinayət məsələlərini əhatə edir.

**İkinci yarımfəslin birinci bölməsi "Yəhudi şəriəti"** adlanır. Bəni-İsrail tayfası arasında şəriətin banisi Musadır (ə). O, əsas qanunları Tövratda bəyan etmişdir. Ona görə də Musa Bəni-İsrail xalqının mürşidi, yol göstərəni və qanuni istinadıdır. Yəhudi alimlərinin bir tərəfdən Talmudun tərtibində və digər tərəfdən Tövratın şərh edilməsində və araşdırılmasında göstərdikləri səylər bu məsələnin nə dərəcədə əhəmiyyətli olmasını göstərir. Yəhudiliyin başlıca mənbələri onarın müqəddəs kitabı olan Bibliyadan və Talmuddan ibarətdir. Qanun və şəriət kimi başa düşülən[5] Tövrat 5 kitabdan ibarətdir: 1. "Yaradılış" kitabı. Bu kitab dünyanın və insan xilqətinin yaranışını rəvayət edir. 2."Çıxış" kitabı. Kitabda Musanın təvəllüdündən, ona peyğəmbərlik verilməsindən və Bəni-İsrailin Misirdən çıxmasından danışılır. 3. "Levililər" kitabı. Burada Levi xanədanından olan kahinlərdən söhbət açılır. Bu kitabda əsas hüquqi məsələlər V, XVIII, XXI, XXIV, XXV və XXVII fəsillərdə şərh olunmuşdur. 4. "Ədədlər" kitabı. Kitabda Bəni-İsrail xalqının Sina dağında sərgərdan olmasından, onun siyahıya alın-

---

[5] Süleymani Hüseyn. Göstərilən əsər, s.45.

masından, bəzi hüquqi və fiqhi qanunlardan söhbət açılır. 5. "Qanunun təkrarı". Bu kitabda Bəni-İsrailin Musanın (ə) ölümünə qədərki tarixindən savayı, həm də əvvəlki kitablarda bəhs olunan hökmlərin təkrarı verilmiºdir.

"Peyğəmbərlər kitabı" adlanan müqəddəs kitabın ikinci hissəsi 8 hissədən ibarətdir. Onlarda Yeşuadan başlamış Yezekelə qədər böyük peyğəmbərlərdən və 12 bölmədə isə kiçik peyğəmbərlərdən bəhs olunur. "Yazılar" və ya "Məktublar" müqəddəs kitabın üçüncü hissəsi təqribən miladdan 100 il öncə formalaşmışdır. Bu hissədə də, çox az yerlərdə hüquqi məsələlərdən bəhs olunur.

Yəhudi hüquq sistemi dini mahiyyət daşıyır və bu mahiyyət onu qeyri-dini hüquq sistemlərindən ayırır. Yəhudi hüququ dini olma özəlliyindən başqa həm də milli olma özəlliyinə sahibdir. Bu özəllik də onu başqa dini hüquq sistemlərindən ayırır. Yəni yəhudiliyin müqəddəs kitabında bütün müraciətlər əsasən Bəni-İsrailə ünvanlanmışdır. Haxam ənənəsinə görə, 613 vacib hökmdən ibarət olan Tövratdakı bütün vacibatı və qadağaları-haramları aşağıdakı ümumi mövzular üzrə qruplaşdırmaq olar: inanclar və ibadətlər, müamilat, cəza, məhkəmə və şahidlik.

**İkinci yarımfəslin ikinci bölməsi "Xristianlıq şəriəti"** adlanır. İbrahimi dinlərin bir çox müddəaları ortaqdır. Bu bağlılıq yəhudilik ilə islam arasında bir cür, xristianlıqla islam arasında isə başqa cürdür. Əslində xristian şəriəti yəhudilik şəriətinin davamı olaraq bilinməlidir. Çünki onların ibadəti yəhudilərin ibadətindən nümunə götürmüş və onlar ibrinin müqəddəs kitabından qaynaqlanan İsanın (ə) təlimini düşünürdülər. Xristianların müqəddəs kitabı (Bibliya) "Əhdi-ətiq" və "Əhdi-cədid" adlı iki hissədən və 66 kitabdan təşkil olunmuşdur. İlk xristianlar üçün yəhudiliyin müqəddəs mətnləri şəriət baxımından etibarlı və keçərli idi. İsa (ə) öz çıxışlarında dəfələrlə bildirmişdir ki, o, yeni şəriət gətirmək üçün gəlməmişdir.

Onun gəlişinin məqsədi insanları Musanın (ə) şəriətinə təşviq etməkdir. Əslində İsanın (ə) dövründə yeni bir şəriətə ehtiyac da yox idi, yəni bunun üçün tarixi şərait yetişməmişdi. Lakin yəhudilərlə xristianlar arasındakı ayrılıqlar və İsanın (ə) yəhudilər tərəfindən öldürülməsi düşüncəsi bu iki dinin daşıyıcılarının tarixdə heç zaman bir sırada yer almalarına imkan verməmişdir. Ona görə də xristian alimləri hüquq və hökmlərlə bağlı müstəqil iş aparmış, müqəddəs kitab və Roma hüququndan yararlanmışlar. Nəticədə bir neçə əsrdən sonra, miladi 1150-ci ildə Qransianus tərəfindən kilsənin ilk qanun külliyyatı hazırlanmışdır.[6] Xristianlığın ikinci banisi adlandırılan Paul bu dindən şəriətin uzaqlaşdırılması üçün çox səylər göstərdi. Onun fikrincə azadlıq üçün şəriətə və dini qaydalara əməl etməyə ehtiyac yoxdur[7], bəşərin nicat yolu şəriətə və dini göstərişlərə itaət deyildir. Çünki əgər belə olsaydı, İsanın (ə) öz canını fəda etməsinə ehtiyac qalmazdı.

Xristianlıqda meydana gələn sekulyarizm, yəni dünyəvilik – şəriətə və dini mətləblərə qarşı müxalifət deməkdir və o, dünyəvi və mülki (ürfi) qayda-qanunların tərəfdarı olmağı nəzərdə tutur. Zaman keçdikcə, siyasi və iqtisadi dəyişikliklər baş verdikcə "sekulyar" ifadəsi də yeni mənalarda və məqsədlərdə istifadə edilmişdir.

**İkinci yarımfəslin üçüncü bölməsi "İslam şəriəti" adlanır.** İstilah etibarilə "fiqh" "şəriət elmi" deməkdir. "Fəqih" şəriət hökmlərinə müfəssəl dəlillər əsasında aydınlıq gətirən din alimidir. Burada "dəlillər" dedikdə islamın əsas qaynaqları olan dörd dəlil, yəni Quran, sünnə, icma və ağıl nəzərdə tutulur. Lakin bəzi islam məzhəbləri ağıl əvəzinə "qiyas"ı (müqayisə metodunu) dördüncü dəlil hesab etmişlər.

Fiqh və üsul elmində Quran şəriət hökmlərinin isbatının ən mühüm dəlili və islam hüququnun ilk qaynağı hesab olu-

---

6 على باشا صالح. سر كذشت قانون. تهران، ١٣٨٣ ش.، ص. ٤٤٤.

7 باير ناس جان. تاريخ جامع الاديان. تهران، ١٣٨٢س.، ص. ٦١٣-٦١٦.

nur. Kitab islam dininin əsasıdır, Allahın kəlamıdır. Qurandan və sünnədən sonra icma və ya fəqihlərin fikir birliyi müsəlmanların mühüm qaynaqlarından biri hesab olunur. Sünni məzhəbi baxımından "qiyas" islam fiqhinin dördüncü mənbəyi sayılır. Şiə fəqihləri mətnlərin anlaşılmasında və hökmlərin çıxarılmasında ağlı islam fiqhinin dörd dəlilindən biri hesab etmişlər.

İslam qaynaqlarından, xüsusilə də Qurandan istifadə etməklə ortaya çıxarılan təklifi-hökmlər aşağıdakı 5 qismə ayrılır: 1. Vacib: Bu əməlləri yerinə yetirmək zəruridir və bunlara qarşı çıxanlar cəzalandırılmalıdır. 2. Haram: Bu əməlləri tərk etmək lazımdır və bu kimi hökmlərə qarşı çıxanlar da cəzalandırılmalıdır. 3. Məkruh: Bu əməlləri tərk etmək arzuolunan olsa da, bu əməlləri yerinə yetirmək günah sayılmır. 4. Müstəhəb: Bu əməlləri etmək savabdır, amma onları etməməyin müqabilində də cəza verilmir. 5. Mübah: bir işin icrasının və ya tərk edilməsinin caiz olmasıdır.

**Birinci fəslin üçüncü yarımfəsli "Mücazat" (cəzalar)"** adlanır. "Mücazat lüğətdə yaxşılığın və ya pisliyin qarşılığında verilən əvəzdir". Bu, "bir hadisədən sonra baş verən və o hadisə ilə əlaqəli olaraq ortaya çıxan başqa bir hadisədir". "Mücazat" ifadəsi eyni zamanda "üqubət" (cəza) adı ilə də ifadə olunur[8]. Hüquq istilahında "mücazat" cürbəcür məzmunlar və ibarələrlə təbir edilmişdir.

Bibliyanın şəriətində cəzaların əsl hədəfi "Tanrının məmnuniyyəti"dir. Yəhudi cəza hüququnda cəzalar insan mənəviyyatının yüksəldilməsi və onu şəriətə yaxınlaşdırılması hədəflərini güdən müqəddəs bir funksiyanın daşıyıcılarıdırlar. Siyasi baxımdan, cəza qanununun icrasının çəkindiricilik hədəfi yəhudi hüququnda ən mühüm hədəf sayılır. Məqsəd təqsirkarın şiddətlə cəzalandırıldığını eşidən və görən insanlar məhz bu

---

8 مرعشلی ندیم و اسامه. الصحاح فی اللغة و العلوم. لبنان. ۱۹۷٤، حرف "ع".

cəzalar səbəbindən bu cür əməllərə bulaşmaqdan qorxsunlar.

İlahi ədalət ideyası Allahın bütün peyğəmbərlərinin mühüm və başlıca təlimlərindən biridir. Əhdi-ətiqdə ("Tövrat"da) Tanrının ədalətinə işarə edilmişdir. İbranilərin ilk başçısı İbrahim Tanrını "bütün yer üzünə ədalət bəxş edən" deyə adlandırır.

İslam cəza nizamında mühüm hədəflərdən biri insanları günah işləməkdən çəkindirməkdir. Amma bu hədəf mütləq surətdə cəzaların icrası üzərində qurulmamış, bəlkə də, daha ümdə şəkildə çəkindirici cəza qanunlarının mövcudluğu üzərində tərtib olunmuşdur. Cəza qanunları gərək elə olsun ki, icrasından öncə fərdləri günah əməllərə bulaşmaqdan çəkindirmək üçün təsir göstərə bilsin. Cəzaların icrasında əsas hədəf insanların hüququnun müdafiəsi, onlara qarşı təcavüzün qarşısını almaq və ədaləti təmin etməkdir. Əgər mənafelərin, hüquqların və öhdəliklərin tarazlaşdırıldığı bir cəmiyyətdə bu dəyərlərə qarşı təcavüz baş verərsə, o zaman bu təcavüzün aradan qaldırılması üçün ədalət öz gücünü göstərər. Bunu cəzanın ədaləti ("criminal justice") adlandırmaq mümkündür.

**Birinci fəslin dördüncü yarımfəsli Bibliya və Quranda cəzaların qanuniliyi (məşruiyyəti)"** adlanır. İbrahimi dinlərdə cəza nizamının ortaya çıxması Tövratın nazil olması və Musanın (ə) şəriəti ilə başladı.[9] Cinayət müqabilində cəzalara dair ilk hökm Tövratda gəlmişdir və qəsdən adam öldürən şəxsə qarşı qisas hökmünün qanuniliyi haqqındadır. Müqəddəs kitabda qadağanedici ayələrin təkcə edama layiq günahlar üçün deyil, bəlkə hətta cəzalarının qamçılama olduğu günahlar və həmçinin hətta pul cəriməsi ilə cəzalandırılması mümkün günahlar üçün də mövcud olması lazımdır.

İslamda cəzaların ən mühüm xüsusiyyəti onların qanuniliyidir. İstilah etibarilə onlara "mücazathayi-şəri" deyirlər. İslam

---

[9] مطهری فر امیر. قبض و بسط اندشه کیفری در ادیان ابراهیمی. تهران، بی تاریخ، ص. ۱۲۰.

şəriəti baxımından bir əməlin günah hesab olunması üçün Quranda və ya sünnədə açıq-aşkar hökmün mövcud olması gərəkdir ki, bu əməli törətməyin qarşılığında cəza təyin olunsun.

Bibliyada fərdlərin qanun qarşısında bərabərliyi haqqında deyilir: Musa özünü İsrail oğullarının iddiaları, müşkülləri və şikayətləri qarşısında tənga gördüyü zaman onlar arasındakı qarşılıqlı iddiaların və məhkəmə çəkişmələrinin həlli üçün qəbilədən bilikli, təcrübəli və müdrik adamları seçərdi ki, onlar arasında qazılıq etsinlər və onların qarşılıqlı iddialarını həll etməklə məşğul olsunlar. O, bu iş üçün həmin adamlara tapşırardı: "Məhkəmə zamanı heç kimin tərəfini saxlamayın. Böyüyə və kiçiyə münasibətdə eyni qaydada qazılıq edin. İnsanlardan qorxmayın. Çünki siz Tanrı tərəfindən məhkəmə edirsiniz".[10]

İslamın cəza nizamında bütün fərdlər qanun qarşısında bir-biri ilə bərabərdirlər. Mənşə, dil, millət, rütbə və s. kimi məsələlərə görə fərqlənmək fərdlərin bir-birindən üstünlüyünün meyarı hesab olunmur.

Bibliyada cəzaların şəxsi olmasına əsasən deyilir ki, məhkumiyyətin və cəzaların nəticələri gərək sadəcə təqsirkar şəxsə qarşı tətbiq olunsun və onun bəlaları heç vəchlə müqəssirin yaxınlarına və digər şəxslərə sirayət etməsin. İslamın cəza hüququnun mühüm qaydalarından biri də budur ki, cinayət məsuliyyəti fərdidir. Yəni yalnız günahı işləmiş şəxs məsuliyyət daşıyır. Heç bir kəs başqasının günahı üçün cəzalandırılmaz. Bibliyada günahla cəza arasında tənasüb üsulu cəzaların bəzisi barəsində açıq-aydın şəkildə bəyan edilmişdir: "İnsanlar arasında münaqişə olarsa, qoy onlar məhkəməyə getsinlər. Hakimlər bu işə baxıb haqlı adama bəraət, haqsıza isə cəza versinlər".[11] İslam hüququnda hələ peyğəmbərin fəaliyyətinin əvvəllərindən təkid edilmiş təməl məsələlərdən biri də günahla

---

10 الكتاب المقدس. تكرار قانون ١٧/١.

11 الكتاب المقدس، كتاب قانون، ٢-١.

cəza arasındakı tənasüb üsuludur. Bu üsula əsasən, günahın zərər gücü nə qədər çox olarsa, onun cəzası da bir o qədər çox olmalıdır və günahın şiddəti nə qədər az olarsa, onun cəzası da günaha mütənasib surətdə bir o qədər az olar.

Yəhudi dinini təşkil edən əsas ünsürlərdən biri "qövmiyyət və milliyyət" olmasına baxmayaraq, Tövratda bəzi hallarda ümumən insani kəramət haqqında deyilir ki, insanın öldürülməsi caiz deyil. Çünki insan Tanrıya bənzər şəkildə yaradılmışdır. İnsanı öldürmüş hər heyvan öldürülməlidir. İslama görə insan Allahın yer üzündə canişini kimi tanıdılmışdır.[12] Quran onun kəramətini açıq-aydın bəyan edir. İslam şəriəti bu xüsusiyyətləri nəzərə alaraq, insan həyatının bütün sferalarını əhatə edən hüquq və mükəlləfiyyətlərin bəyanı üçün hökmlər çıxarmış, bunlara riayət etməyi öz ardıcılları üçün vacib bilmişdir.

**Dissertasiyanin ikinci fəsli "Bibliya və Quranda cəza sistemi"** adlanır. **İkinci fəslin birinci yarımsəfli "Bibliya və Quranda cəzaların növləri"** adlanır. İbrahimi dinlərdə cəzalar müxtəlif ölçülərə malikdirlər. Bəşəri qanunlardakı cəzalardan fərqli olaraq, İbrahimi dinlərdə günahkar (müqəssir) üçün maddi cəzalardan başqa, İlahi cəzalar da nəzərdə tutulmuşdur. Belə ki, günahkar fərd əgər qanunun əlindən qurtulsa belə, heç vaxt İlahi cəzadan qurtuluş tapa bilməz. Bu üzdən dinşünaslar cəzaları üç qrupa ayırırlar: 1.Qərarla verilmiş (qanuni) cəzalar –bəşəri cəmiyyətdə İlahi qanunlar əsasında təyin olunmuş cəza qərarlarını əhatə edir. 2. İnsanın əməllərinin dünyəvi nəticəsi və mükafatı olan cəzalar. 3. Günahın özünün təcəssümü olan və ondan ayrılmayan axirət cəzaları.

Yəhudi məhkəmələrində 23 qazıdan ibarət xüsusi məhkəmə vardı ki, o, edama layiq günahları araşdırırdı. Tövratda qətl, adam oğurluğu, cadugərlik, küfr söyləmək, ərli qadınla

---

12 القران، سورة البقرة، ٣٠.

zina etmək, atanı və ananı vurmaq, atanı və ananı lənətləmək, heyvanla yaxınlıq etmək, nişanlı qızla zorla zina etmək və s. kimi 36 günah üçün edam cəzası nəzərdə tutulur. Tövratda iki edam üsulu – daşqalaq və yandırmaq – açıq-aşkar qeyd olunmuşdur. Qılıncla və asmaqla qətl etmək cəzaları da az hallarda caiz görülür. Talmudda ölümə məhkumların edamı üçün 4 üsul sadalanır: daşqalaq, yandırmaq, boyun vurmaq və boğmaq. Tövratda daşqalaq 17 günah üçün nəzərdə tutulmuşdur: Başqa tanrılar (bütlər) üçün qurban vermək, cadugərlik, küfr söyləmək, başqa tanrılara pərəstiş etmək, oğulun ataya qarşı baş qaldırması və fitnə çıxarması, izdivac etmiş qızın bakirə çıxmaması, nişanlı qızla zina etmək, öküzün buynuz vurması ilə insanın ölümü, şənbə gününə qarşı hörmətsizlik və s. Talmudda isə heyvanla cinsi yaxınlıq, ərli qadınla zina etmək, məhrəmlərlə zina etmək, homoseksuallıq, ölülərin ruhlarının çağırılması, falçılıq və cindarlıq vasitəsilə öncəgörənlik etmək və qeybdən xəbər vermək günahlarına görə daşqalaq layiq görülür.

Tövratda açıq-aydın bəyan edilmiş edam cəzaları iki cürdür: daşqalaq və yandırmaq. Tövrat bəyan edir ki, daşqalağın icrası üçün ümumi camaat toplanmalı, daha sonra "ölkə xalqı onu daşqalaq etməlidir". İlk daşlar şahidlərin vasitəsilə günahkara atılmalıdır, sonra isə bütün camaat. Talmud ölüm məhkumlarının edamı üçün rəsmən 4 üsul tanıyır. Bu üsullar şiddət sırası ilə aşağıdakılardan ibarətdirlər: daşqalaq, yandırmaq, boyun vurmaq və boğmaq. Bəlkə də, talmudilərin yəhudi ayininə gətirdikləri daşqalaq üsulu bir yenilik və bidətdir ki, özləri ona əməl etmişlər. Bu üsula görə, camaatın məhkumu daşqalaq yerində, irili-xırdalı daşlardan ibarət xüsusi bir çuxur hazırlanırdı, "məhkumu hündür yerdən aşağıya tullayırdılar və sonra onun üstünə böyük bir daşı atırdılar", bu minvalla da onu öldürürdülər. Talmud adətində daşqalağın başqa bir forması da bəyan edilmişdir. Yandırmaq cəzası isə Tövratda iki cür güna-

hın müqabilində icra olunur: 1. Kahin qızının zina etməsi. 2. Kişinin öz anası ilə yatması. Talmudda bəyan olunur ki, bu günah kişinin öz qızı, nəvəsi, arvadının qızı və nəvəsi, arvadının anası və nənəsi ilə yatmasına da şamil edilir.

Yəhudi ayinində qılıncla boyun vurmaq cəzası iki halda tətbiq olunurdu: a) Bütpərəstliyə üz tutmuş kəslər üçün. b) Qəsdən adam öldürmək. Yəhudi ayinində boğmaq Tövratda göstərilmiş bu günahlar üçün nəzərdə tutulub: atanı və ananı vurmaq, adam oğurluğu, ərli qadınla zina, kahin qızı ilə zina və s.

Bibliyada dara çəkmək cəzası təqsiri çox və günahı böyük olan şəxslərə qarşı tətbiq edilirdi. Bəzən Tövrat öz qayda-qanunlarına əməl edən qeyri-yəhudi qövmlərin arasında bu cəzanın icrasından söz açmış, bəzən bu edam qeyri-yəhudi qanunu kimi İsrail xalqı arasında icra olunmuş, bəzən də bu cəza qanundan kənar və məhkəmənin hökmü olmadan padşah tərəfindən icra olunmuşdur. Musa (ə) şəriəti əsasında dara çəkmək Tövratda yalnız bir halda xatırladılmışdır: bəzi günahlarda edam hökmünün icrasından sonra daha çox ibrət olsun deyə edam olunmuş şəxsin cəsədini dar ağacından asırdılar.

Bibliyada can qisası (qatilin edamı) qəsdən törədilmiş qətl və qəsdən vurulmuş yara müqabilində verilən cəzadır. Hərçənd Quran qisası qəsdən adamöldürmə cinayətinin cəzası elan etmişdir və qatilin öldürülməli olduğunu bildirmişdir, amma edam üsulunu qeyd etməmişdir. Quranda edam üçün göstərilmiş tək üsul dar ağacından asmaqdır. Daşqalaq, boyun vurmaq, yandırmaq, boğmaq və s. kimi üsulların adı çəkilməmişdir. Keçmiş zamanlardan indiyə kimi müsəlmanlar arasında ixtilaf mövzusu olmuş məsələlərdən biri də daşqalaq hökmüdür. Daşqalaq barəsində müxtəlif rəylər və fikirlər mövcuddur. Bəziləri bu üsulun qanuniliyini önə sürmüşlər, bəziləri isə qanuniliyi şərtləndirən zərurəti nəzərə alaraq, daşqalağa layiq günahın isbatının qeyri-mümkün olduğunu hesab etmişlər. Çünki

onların fikrincə, islam bu cür günahların isbatı üçün çox sərt şərtlər qoyduğundan, bunların sübut edilməsi çox çətin və imkansızdır. Quranın heç yerində ərli qadınla zina etməyin cəzasının daşqalaq olduğu zikr edilməmişdir. Peyğəmbər (s) zamanında daşqalağın icrası hadisəsi bir və ya iki haldan artıq baş verməsə də, sünnilərin və imamiyyə şiələrinin qaynaqlarında daşqalaq hökmünün isbatı üçün rəvayətlər gözə dəyir. Bəzi islam hüquqşünasları onlara istinad edərək, daşqalağın mövcudluğunu isbat edirlər, bəziləri isə bu rəvayətlərə qarşı müxtəlif iradlarını və şübhələrini irəli sürürlər. Yəhudi və müsəlman qanunvericiliyində daşqalağın həm oxşar, həm də fərqli cəhətləri vardır. Oxşarlıqlar: a) İslam hədislərində daşqalaq üsulu Tövratda yazılan üsulla oxşardır. b) Həm Tövrata, həm də islam hədislərinə görə, daşı atan ilk şıxslər şahidlər olmalıdırlar. c) Hər iki ayində zinakarın cəzalandırılması İlahi hüquqdan hesab olunur və bağışlanmır. d) Tövratda və Quranda ərli qadının zinası müqabilində daşqalaq barədə heç bir ayə yoxdur. Fərqlər: a) Daşqalağın icrası üsulu islam hədislərində və Talmudda tamamən fərqli şəkildə əks olunmuşdur. b) İslama görə daşqalağa layiq günah ərli kişi ilə ərli qadının zinasıdır. Amma yəhudi ayinində 18 günah daşqalaqla cəzalandırılır. c) İslam zinanın isbatı üçün xüsusi şərtlər qoyduğu halda, yəhudi ayinində bu yoxdur. d) Yəhudi ayinində heyvanlar və ölülərin tabutları da daşqalaq edildikıəri halda, islamda bu cür hökm mövcud deyildir. e) İslamda zinanın sübutu halında daşqalaq cəzasının təyin ediləcəyi hökmü daha çox günahdan çəkindiricilik və qorxuduculuq xarakteri daşıyır. Amma yəhudi ayinində daha çox səy göstərilir ki, bu günah sübuta yetirilsin və hökm icra olunsun. ə) Yəhudilərdə daşqalaq hökmünün icrası mütləq şəkildə günahkarın ölümü ilə nəticələnməlidir. Amma islamda bu hökmün icrası bəzən günahkarın daşqalaq məkanından qaçışı ilə nəticələnə bilər və belə olan halda onu buraxarlar.

Yandırmaq cəzası barəsində Quranda heç bir ayə yoxdur. Amma sünnədə yandırmaq cəzasının yalnız kişi cinsindən olan iki şəxsin bir-biri ilə homoseksual əlaqəsi müqabilində təyin olunduğu göstərilir. “Qılıncla boyun vurmaq” cəzasın Quranda olmasa da sünnədə ana, bacı, bibi, xala, qardaş qızı və bacı qızı ilə zina və qeyri-qanuni əlaqəyə, homoseksualizmə, qadın homoseksualizmi, şərab içmək, silahlı basqın etmək, dindən çıxmaq və s. günahlar qarşılığında verildiyi göstərilir.[14] Quranda quldurluğa və yolkəsənliyə qarşı dar ağacından asmaq və qisas cəzalarının əsas hədəfi insanların nicatı və ictimai həyatın əmniyyəti üçün sabitliyin təmin olunmasıdır.[15]

Yəhudi dinində bədən üzvlərinə yara vurulmasının, yarılmasının və kəsilməsinin cəzası qisasdır. Tövratda açıq-aydın şəkildə çox hallarda “göz əvəzinə göz” qanunu təkid edilmişdir. İslamda da belə cinayətlər üçün verilən cəzalar da cinayətkardan bədən üzvlərinin qisasının alınması nəzərdə tutulur. Tövratda cəzası dəqiq göstərilməyən hər bir qadağanı pozmağın cəzası cəza şallağı ilə verilir. Quranda bu cəza qeyri-qanuni cinsi əlaqə (zina) üçün 100 şallaq və digərinə qarşı zina böhtanı atmaq müqabilində isə 80 şallaq elan olunmuşdur. Tövratda yalnız bir yerdə əl kəsmək cəzası təyin edilmişdir. Quranda əl kəsmək cəzası iki günah oğurluq və quldurluq barəsində qeyd edilmişdir. Tövratda həbs müvəqqəti saxlanma mənasında 3 mövzuda zikr edilmişdir: a) İstintaqın sonunadək müttəhimin müvəqqəti saxlanması. b) Bir hökumət təşəbbüsü olaraq həbs. c) Fərdləri qayda-qanunlarla razılaşmağa vadar etmək üçün tətbiq olunan üsullardan biridir. Talmuda görə isə belədir: 1. Cəzası qəfil ölüm və ya “karet” olan günahı üç dəfə işləmiş kimsə həbsə məhkum olunar. 2. Qəsdən adamöldürmə halında, əgər məhkəmə müttəhimin bu cinayəti qəsdən törətdiyini sübuta yetirməyi bacarmasa və beləliklə, onu

14 العاملی محمد بن جمال الدین. اللمعة الدمشقیة. الجلد التاسع، بیروت، ۱۹۸۳، ص. ٦٢
15 شمس ناتری محمد ابراهیم. بررسی تطبیقی مجازات اعدام، قم، ۱۳۷۸س.، ص. ۱۱۹

edama məhkum edə bilməsə, amma onun qatil olduğuna inansa, o zaman müqəssirlərin qanundakı boşluqlardan sui-istifadə etmələrinin qarşısını almaq üçün onu həbs cəzasına məhkum edər.Qurana əsasən zindanlar cinayətlərə görə 3 növə ayrıldı: 1. Borcunu ödəyə bilməyənlər üçün xüsusi zindan. 2. Oğrular üçün məxsusi zindan. 3. Digər xatakarlar üçün nəzərdə tutulmuş zindan. Həbs haqqında çox sayda rəvayətlər (hədislər) də mövcuddur.

Yəhudi cəza hüququnda sürgün cəzasının 2 forması göstərilir: a) Öldürmək qəsdi olmadan kimisə qətlə yetirmiş şəxslərə qarşı tətbiq olunur; b) Qovulmaq cəzası (məhrumiyyət). Belə bir hökmün verilməsi ilə məhkumun cəmiyyətlə əlaqəsi şiddətlə məhdudlaşdırılır və müqəssir cəmiyyətin üzvləri ilə heç cür əlaqə saxlaya bilmir. Bu ən yüngül forması günahkarın cəmiyyətdən qısamüddətli, ən şiddətli forması isə günahkarın cəmiyyətdən uzunmüddətli qovulmasını nəzərdə tutur.

"Nidui" ve "herem"e layiq görülən günahlar. Nidui cəzası daha çox kiçik günahlara görə təyin edilir. Talmud alimləri bir alimə qarşı təhqir, məhkəmə məmuruna hörmətsizlik, məhkəmənin qərarlarına itaət etməmək, yəhudi ruhanilərinin öyüdlərinə etinasızlıq, maliyyə cəzalarını ödəməmək, təhlükə törədən it saxlayan adamın ona yetərincə nəzarət etməməsi, qonşunun öncəlik haqqına riayət etmədən yad adama (yəhudi olmayana) torpaq satmaq, bir qeyri-yəhudi məhkəməsinin hökmü əsasında pul əldə etmək, az əhəmiyyətli mövzularda edilən söhbətlər və bu mövzulara dair içilən andlarda Allahın adını çəkmək, insanları Allahın adına təhqir söyləməyə təhrik etmək, kor adamın yolu üzərində maneə yaratmaq və s. 24 günahı "nidui"yə layiq hesab etmişlər. Herem cəzası daha ağır günahlar müqabilində verilirdi. Məsələn, dul qadınlara və yetimlərə zülm etmək, yalan (batil) and və rüşvət, qazının hökm çıxarmaqdan imtina etməsi və s. Nidui və herem cəzaları o zaman ləğv olunur ki, günahkar tövbə etsin, Allah yoluna qayıtsın.

Quranda quldurluq yeganə günahdır ki, onun üçün sürgün cəzası zikr edilmişdir. İslamda sürgün cəzası qətl və əxlaqsızlıq günahları üçün zikr edilmişdir: Burada aşağıdakı cəhətləri nəzərə almaq lazımdır: a) Əvzai, Şafei və b. kimi bəzi sünni alimləri iki kişinin bir-birilə homoseksual əlaqəsinin (livat) cəzasının sürgün olduğunu bildirmişlər. Amma şiə fəqihlərinin çoxu livat üçün bu cəzanı qəbul etməmişlər. b) İslam fiqhində zina, homoseksualizm (livat) və lezbiyanlıq kimi qeyri-qanuni cinsi əlaqə yaratmaq məqsədi ilə qadınlar və kişilər arasında vasitəçilik edənləri, bəzi hallarda qazı günahkarı sürgün cəzasına da məhkum edə bilər. c) "Müxənnəs" o kəsdir ki, özünü əxlaq, rəftar və söhbətdə qadın kimi aparar, onlar kimi paltar geyər, onlar kimi danışar və homoseksual əlaqədə olar. d) Burada nəzərdə tutulan zina ərsiz qadının və subay kişinin etdiyi zinadır.

Yəhudi hüququ bəzi günahlar üçün maliyyə cəzasını nəzərdə tutmuşdur. Bu cəza bəzən bir şəxsin digərlərinə yetirdiyi cismani zərərlərə, bəzən də oğurluq və əmanətə xəyanət kimi əmlakın və maliyyə vəsaitinin ziddinə olan günahlara qarşı tətbiq olunur. Qətl barədə Tövratın hökmü budur ki, ölüm cəzasına layiq qatilin canı üçün fidyə almayın, çünki o öldürülməlidir. Qətldən başqa, qalan günahlar üçün fidyə ödəmək mümkündür. Tövratdakı bədən üzvü qisası qanunununa əsasən soydaşına xəsarət və zərə yetirmiş şəxs 5 növ fidyə ödəyə bilər: a) Cismani xəsarət. b) Zərərçəkmişin məruz qaldığı dərd və əziyyət müqabilində nə qədər məbləğ tələb olunursa zərərvurmuş həmin məbləği fidyə olaraq verməlidir. c) Dərman xərcləri. d) Zərərçəkmişin işsiz qaldığı müddətə görə təzminat. e) Həqarət və təhqir etməyin təzminatı. Tövratda bəzi günahlar müqabilində miqdarı bəlli olan pul cəzası təyin edilmiş, bəzi hallarda isə maliyyə cəzasının ölçüsü təyin edilməmiş və zərərçəkmiş şəxsin öhdəsinə buraxılmışdır.Tövratda maliyyə təzminatı yerinə bəzən zərər yetirilmiş malın cinsindən təzminat təyin edi-

lir.

İslamda maliyyə cəzaları diyat, ərş, kəffarə və tavan kimi tiplərə bölünür. Diyət və ya qanbahası müəyyən bir maliyyə cəzasına deyilir və aşağıdakı günahlar zamanı tətbiq olunur: a) Adam öldürməyin fidyəsi. Adam öldürmək 3 cür baş verə bilər: qəsdən, qəsd olmadan və qəsd olmadan adam öldürmək özü də iki yerə ayrılır: tam xəta üzündən və qəsdə bənzər qətl. Əgər qətl xəta üzündən baş veribsə, gərək o, öldürdüyü adamın ailəsinə fidyə ödəsin. b) Bədən üzvlərinin kəsilməsi cinayətinin (əl, ayaq, barmaq, qulaq, burun və s. kəsmək) fidyəsi. Bir kamil insanın canının fidyəsi 100 dəvə olduğu üçün bədən üzvlərinin fidyəsinin ölçüsü də bu miqdarla tənzimlənir. Bəzi hallarda fidyənin miqdarının təyin edilməsi qazının öhdəsinə buraxılmışdır. d) Yara fidyəsi. Əgər bir şəxs digərinin bədəninə yara vurubsa, ona müəyyən miqdarda fidyə ödəməlidir. e) Ərş – bir fidyə və maliyyə cəzanın miqdarının müəyyənləşdirilməsi qazının ixtiyarına buraxılmışdır. f) Kəffarə. Kəffarə islam şəriətində cəzanın aradan qaldırılmasına və ya onun yüngülləşdirilməsinə gətirib çıxaran bir ibadətdir.

Bibliyada İlahi cəzalar. Bəzi hallarda Tanrı cəzaların icrasını məhkəmələrin üzərinə qoymayaraq, özü günahkarları cəzalandırır. Bu cəza ilk baxışda günahın axirətdə veriləcək cəzasını xatırlatsa da, əslində onun icra yeri axirət deyil, bu dünyadır. Digər tərəfdən, bu İlahi cəzalar məhkəmə cəzaları ilə də əvəz edilə bilər. Yəhudi dininə görə İlahi cəza qətidir və qaçılmazdır. Onun icra tərzləri çeşidlidir və növləri saysızdır. Tövratda İlahi cəzaya məruz qalmış fərdlərin adları çəkilmişdir: Qabil bunun bir nümunəsidir. O, öz qardaşını öldürdüyü üçün qisasa məruz qalmasa da, İlahi cəzaya düçar olur. Tövratda İlahi cəzaya uğramış digər şəxslərin də adları qeyd olunmuşdur. Bibliyada bütün qövm üçün İlahi cəzalar. Nuh qövmünün cəzalandırılması İlahi cəzaların bir örnəyidir. Tövratda deyilir ki, Tanrı ataların günahının intiqamını onların düşmənlərinin

əli ilə ta üçüncü və dördüncü nəslədək onların övladlarından və xələflərindən alacaq.

Quranda bu dünyadakı İlahi cəzalardan söz edilmişdir, amma Tövratda bu məsələ fərqli bir şəkildə açıqlanmışdır. Qurana görə İlahi cəzalar insanın əməllərinin nəticəsidir, insanın yaxşı və pis əməllərinin nəticəsi onun özünə qayıdar. Bir adamın yaxşı əməlinin savabı onun övladlarına və xələflərinə də çatar, onun pis işlərinin təsiri isə özündən sonrakı nəslinə yetişər. Amma Allah günahların çoxunu özünün əfv və rəhmət qələmi ilə bağışlayacaqdır.

**İkinci fəslin ikinci yarımsəfli "Bibliya və Quranda insanı cəza məsuliyyətindən azad edən səbəblər"** adlanır. Bibliyada insanı cəza məsuliyyətindən azad edən səbəblər. İkrah. Yəhudi cəza hüququnda ikrah 5 qismə bölünür: 1. İcbar (məcbuetmə, zorlama); 2. Ölümlə təhdid; 3. İşgəncə; 4. İztirar (çarəsizlik); 5. Mövzu (fakt) yanlışlığı və agahsızlıq (anlaqsızlıq). Yəhudi ayinində 3 günah vardır ki, əgər insan hətta ölümlə təhdid edilsə belə, onlara əməl etməməli, ölməyi üstün tutmalıdır. Bu günahlar bütpərəstlik, ərli qadınla və ya öz məhrəmləri ilə zina etmək və qətl törətmək. Bütün bunlarla yanaşı, hüquqi qaydaya əsasən əgər bir yerdə bu hökmə əməl etmək mümkün olmasa və bu günahlardan biri ölümdən qaçmaq üçün törədilərsə, günahkar cinayət məsuliyyəti daşımır. İşgəncə bir tərəfdən cismi icbara (məcburetməyə) gətirib çıxarır və axırda zərərçəkmiş ixtiyarını əldən verməyə məcbur olur. Tövratda bəyan edilmişdir ki, ilk başdan haram elan edilmiş və aqibəti cəza olan qeyri-qanuni əməllər "iztirar (çarəsizlik) halında" törədilibsə, cəza məsuliyyətinə səbəb olmaz. Yəhudi ayinində ikrahın daha az əhəmiyyətli forması anlaqsız və qeyri-iradi şəkildə baş vermiş hər bir əmələ görə şəxs cinayət məsuliyyəti daşımır.

Tövratın anadangəlmə karların və lalların, divanələrin və uşaqların cinayət məsuliyyəti barəsində susmasına baxmaya-

raq, Talmud hüquqşünasları bu etiqaddadırlar ki, bu üç qrup ağıldan məhrumdur. Onlar hesab edirlər ki, kar və lal şəxslər qanun qarşısında uşaqlarla bərabər fərz olunmalıdırlar. Yəhudi hüquqşünasları sərxoş halda törədilmiş əməl cinayət məsuliyyətindən azad edən amillər sırasında hesab edilmir.

Yəhudi hüququnda "qanundan xəbərsiz olmaq" o kəslərə şamil edilir ki, onlar nəinki törətdikləri əməlin günah olduğunu bilməmişlər, tam əksinə olaraq, əməllərinin qanuni olduğuna inanmışlar və bu düşüncə ilə günah işləmişlər. Belə şəxslər cəzaya məruz qalmazlar. Yəhudi ayinində tövbə etmək, əsas etibarilə cəzanın aradan qalxmasına səbəb olmaz. Əlbəttə, yəhudi alimlərinin fikrincə, "herem" cəzaları kimi az hallarda tövbə cəzaların götürülməsinə təsir edə bilər. Quranda isə ikrah və icbar cəza məsuliyyətindən azad edən səbəblərdir. İkrah odur ki, biri digərini təhdid və icbar (məcburetmə) ilə özünün istəmədiyi bir işə vadar etsin. Çünki təhdid və qorxu ikrahda insanın iradəsini məhdudlaşdırar, icbardakı təhdid və qorxu isə insanın öz iradəsini itirməsinə səbəb olur. Quran qətldən başqa cəza məsuliyyətini "ikrah edənin" üzərindən qaldırmışdır. "İztirar" ifadəsi elə bir ehtiyac içində olmağı nəzərdə tutur ki, onun qarşısında dözmək mümkün deyildir. İztirar bir qayda olaraq, xəstəlik, aclıq, susuzluq kimi amillərdən, zəlzələ, yanğın, sel və s. kimi təbii fəlakətlərdən qaynaqlanır. Bu halda insan ölüm qorxusu altında elə bir işə təşəbbüs göstərə bilər ki, adi vəziyyətdə heç vaxt belə etməzdi. Bu hallarda törədilən günahlar əksər qanunlarda onun naçar və iztirar vəziyyətində olmağı nəzərə alınar. Tövbə isə şəriətdə günahı tərk etmək, onu törətməyə görə peşman olmaq, günahı təkrarlamamaq barədə qəti niyyət və iradənin mövcudluğu və insanın öz-özünü islah etməsi üçün zəmin hazırlaması anlamlarındadır. İslama görə Allah tövbə edənləri sevər, bəndələrin tövbəsini qəbul edir və onları pisliklərindən və günahlarından keçər. İslamda qanundan bixəbər olan insanın cəzalandırılması əqlən yaramaz

və qəbahətli bir işdir, amma bu heç də cəza məsuliyyətini tamamilə ortadan qaldırmaz. Çünki o zaman hər kəs qanundan xəbərsiz olduğunu iddia edər. İslam fiqhində qanun qarşısında cahil (bilgisiz) olmaq üçün aşağıdakı şərtlər zikr olunmuşdur: 1. Müsəlmanlığı yeni qəbul etmiş, müsəlmanlar arasında yaşamamış, onların mədəniyyətindən və qanunlarından xəbərdar olmayan şəxslər; 2. Müsəlmanlardan uzaqda boya-başa çatmış şəxslər; 3. Əvvəllər divanə olmuş, sonra sağalmış və bu səbəbdən haramlardan agah olmadan harama əl atmış şəxslər. Müsəlman hüquqşünasları insanın məsuliyyət daşıması üçün onun həddi-büluğa çatması və ağıl sahibi olması vacib şərtdir. Buna görə də uşaq və ya divanə günah iş tutsa və ya pis əməl törətsə, onlara günahkar və müqəssir gözü ilə baxılmaz.

Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı əsərlərində öz əksni tapmışdır:

1. The significance of archeology in the Quran. Attended the Second International Congress of the Society of South Asian Archaeology Held in Shiraz, Iran from 25th May 2008 to 29th May 2008, hosted by The Islamic Azad University of Kazeroun.
2. فكرة العقوبة فى الشريعة الاسلامية. Certification of Presentation in the 2nd International seminar on Islamic thought (ISOIT2)? 6-7th October 2009? Universiti Kebangsaan Malasia, p.1.
3. Xristianlıq şəriətinə dair. Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dövlət və din ictimai fikir toplusu. 6(20), Bakı 2010, s.222.
4. The role of Virtual Universities in the promotion and development of islamic education. International conference on Islamic education 2010 (ICIED 2010), s.1037.
5. Darvish, Farangis: Study of the concept of Asceticism in the Islamic mysticizm: Based on the mystics texts. The world of Islam: History, Society, Culture. Тезисы докладов II Международной научной конференции 28-30 октября 2010г. Москва, Российский университет дружбы народов 2010, с.217.
6. Yəhudi hüququnda edam hökmünə qısa baxış. – Bakı Dövlət

Universiteti İlahiyyat fakültəsinin elmi məcmuəsi. №15. Bakı, 2011, s.195.
7. Yəhudi şəriətinin yazılı və şifahi mənbələri. – Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin elmi məcmuəsi. №19. Bakı, 2013, s.317.

**Zakir Abbasali M.S.**

## The comparison of punishment laws in Islam, Christianity and Judaism

### Summary

In the introduction the actuality and scientific novelty of the theme is grounded, the aim, tasks and theoretical-methodological basis have been determined.

In the first chapter titled "Bible and Koran as main sources of punishment orders" the main aspects of comparative religions, Jewish, Christian and Islamic shariat and their similar and different features, aims of punishments, the God`s justice, protection of human rights and some issues connected with legitimacy of punishments have been investigated.

In the second chapter titled "Punishment system in Bible and Koran" punishment kinds including throwing stones, burning, neck cutting with sword, drown, gallows, revenge, exile, financial indemnity, kaffara and others are investigated on base of the shown saint books, which punishments are given for crimes have been commented according to the samples from the given sources. Besides, the reasons liberating the man from punishment in Bible and Koran have been widely investigated.

In the conclusion the results of the carried out investigations have been summarized.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ РУКОПИСЕЙ имени МУХАММЕДА ФИЗУЛИ**

***На правах рукописи***

**МУХАММЕДРЗА ЗАКИР АББАСАЛИ САМЕД ОГЛЫ**

# СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ НАКАЗАНИЙ В ИСЛАМЕ, ХРИСТИАНСТВЕ И ИУДАИЗМЕ

**7213.01 – Религиоведение**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по философии**

**БАКУ - 2014**